DÜNYA

Ukrayna təhlükəsizlik orqanlarının rəsmiləri narkokartellə əlbirlikdə ittiham olunurlar

Noyabr 06, 2026



Ukrayna Milli Polisinin Strateji Araşdırmalar Departamentinin rəis müavini Volodimir Tsenov

Ukraynanın təhlükəsizlik və polis orqanlarının üç yüksəkvəzifəli əməkdaşı cinayətkar təşkilatın fəaliyyətində iştirak etməkdə ittiham olunur. Ölkənin Milli Antikorrupsiya Bürosu (NABU) və İxtisaslaşmış Antikorrupsiya Prokurorluğu (SAPO) bildiriblər ki, bu cinayətkar qrup dələduzluqla məşğul olan çağrı mərkəzləri işlədib, narkotik vasitələrin satışı ilə məşğul olub və saxta xarici valyuta hazırlayıb.

NABU noyabrın 5-də beş nəfərə rəsmi şübhəli şəxs bildirişi təqdim edib. Onların arasında Ukrayna Təhlükəsizlik Xidmətinin (SBU) bir yüksəkvəzifəli əməkdaşı və Milli Polisin iki yüksəkvəzifəli təmsilçisi var. "Karfagen" kod adlı istintaq çərçivəsində digər

şübhəlilərə qarşı da ittihamların hazırlandığı açıqlanıb. Cinayətkar təşkilatın fəaliyyətində daha azı yeddi nəfərin iştirak etdiyi ehtimal olunur.

Müstəntiqlər qrupun əsas təşkilatçısının "Kriminal" ləqəbli, əvvəllər məhkum olunmuş bir şəxs olduğunu bildirirlər. İstintaqın iddiasına görə, həmin şəxs hazırda başqa bir cinayət işi üzrə həbsdə olan **Andriy Osipov**dur. NABU və SAPO-nun qismən açıqladığı telefon dinləmələrinə əsasən, Osipov qrupa "Meksikalı" kod adlı Rusiya vətəndaşı ilə birlikdə rəhbərlik edib. İddialara görə, Rusiyadan Ukraynaya qaçmış həmin şəxs burada böyük bir narkokartel yaradıb.

"Meksikalı"nın hələ bir il əvvəl dələduzluqla məşğul olan çağrı mərkəzləri şəbəkəsini idarə etdiyi bildirilir. "Kriminal" isə bu mərkəzlərin hüquq-mühafizə orqanları, o cümlədən SBU, Baş Prokurorluq və Milli Polis tərəfindən himayə olunmasını təmin edirmiş.

Ayda 7 min dollar rüşvət

Cinayətkar qrupun 52 belə mərkəzin fəaliyyətini əlaqələndirdiyi və hər bir mərkəzin işinin maneəsiz davam etməsi üçün ayda 7 min dollar rüşvət ödədiyi iddia olunur. Polisin Strateji Araşdırmalar Departamentinin rəis müavini **Volodimir Tsenov**un telefon danışıqlarında "Qiymət" kod adı ilə çağırıldığı deyilir. Müstəntiqlərin qənaətinə görə, o, pul qarşılığında çağrı mərkəzlərinin fəaliyyətinə göz yuman rəsmilərdən biri olub.

Noyabrın 5-də Ukraynanın Ali Antikorrupsiya Məhkəməsi Tsenov barəsində 60 günlük həbs-qətimkan tədbiri seçib. Onun azadlığa buraxılması üçün 15 milyon qrivna (330 min dollar) məbləğində girov müəyyən edilib. Tsenov məhkəmə binasında jurnalistlərin suallarını cavablandırmaqdan imtina edib. NABU və SAPO-nun məlumatına görə, qrup öz maraqları naminə adam oğurluğu, qəsdən bədən xəsarəti yetirmə və əvvəlcədən planlaşdırılmış hücumlar kimi ağır cinayətlər də törədib.

"Oskar" kimdir?

Müstəntiqlər Baş Prokurorluğun "Oskar" ləqəbli əməkdaşının da bu cinayət fəaliyyətində iştirak etdiyini bildiriblər, amma konkret kimdən bəhs olunduğu açıqlanmayıb. Bundan əvvəl Ukraynanın keçmiş baş prokuroru **Ruslan Kravçenko** iddia edirdi ki, NABU Ukrayna Təhlükəsizlik Xidmətinin (SBU) üç yüksəkvəzifəli əməkdaşının iş yerində axtarışlar aparır. Onun sözlərinə görə, hədəfə alınan həmin əməkdaşların rəhbərlik etdiyi bölmələr vaxtilə NABU rəhbəri Semen Krivonos və SAPO rəhbəri Oleksandr Klimenkonun ailə üzvlərinə qarşı açılmış cinayət işlərinin istintaqını aparıblar.

Kravçenko "Karfagen" istintaqı barədə məlumatlar yayıldıqdan sonra, sentyabrda istefa verərək Ukraynadan qaçıb. Noyabrın 4-də o, NABU və SAPO-nun hərəkətlərini "siyasi qisas və ölkədə sabitliyi pozmaq üçün sistemli cəhdlər" adlandırıb.

Ukraynada korrupsiyanın dərin kök saldığı bildirilir. Ötən il prezident Volodimir Zelenskinin əsas köməkçilərindən olan **Andriy Yermak** da istefa verməli olmuşdu. Bu istefa istintaq orqanlarının "Enerqoatom" dövlət nüvə enerjisi şirkətinin podratçılardan yüz milyonlarla dollar qanunsuz ödənişlər almasını araşdırdığı dövrə təsadüf etmişdi.

Buna da bax:

Ukrayna parlamenti baş prokurorun istefasını təsdiqlədi

Müharibə pulları ilə dəbdəbəli villalar: Ukraynada gizli səs yazıları açıldı

Ukraynanın keçmiş səfiri qanunsuz varlanmada ittiham olunur: 134 min dollar girov ödəməlidir

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur